*Aytən ƏSƏDOVA* *

# BƏRDƏ ŞƏHƏRİNDƏ AŞKAR EDİLMİŞ ŞÜŞƏ QOLBAQLARININ İSTEHSAL TARİXİNDƏN

**Açar sözlər:** Bərdə şəhəri, qolbaq, bəzək, şüşə, rəng
**Key words:** Barda city, bracelet, decoration, glass, colour
**Ключевые слова:** Город Барда, браслет, украшение, стекло, цвет

Azərbaycanda bəzək əşyaları müstəqil sənət növü kimi qədim tarixə malik olsa da onun inkişafına IX əsrdən başlanmışdır. Azərbaycanda feodal münasibətlərinin inkişafı şirli keramikanın təsərrüfatda və məişətdə özünə geniş yer tapmasına şərait yaradır. Bu da şirli keramikanın istehsalı zamanı şirə istehsalı vacibliyi ilə əlaqəli idi. Şirə isə məlum olduğu kimi şüşə bəzək əşyası istehsal etmək üçün hazırlanmış yarımfabrikant materialdan idi. Bu xüsusilə müxtəlif rəngli muncuq və qolbaqlardan ibarət idi. Şüşə bəzək əşyaları üzrə sənətkarlığın geniş inkişaf etdiyi dövrdə, IX əsrdən sonra, onları həmin dövrə aid çoxsaylı qalıqlar təsdiq edir. Bu, Bərdədən aşkar edilən əşyalar içərisində əyani şəkildə izlənilir. Son zamanlar buradan kifayət qədər şüşə bəzək əşyası aşkar edilmişdir ki, bu da şəhərin iqtisadi həyatında və məişətindəki yeri və rolu müəyyənləşdirməyə imkan verir. Bərdədə aparılmış arxeoloji qazıntılar zamanı çoxlu miqdarda şüşə bəzək əşyaları aşkar edilmişdir. Bu şüşə bəzək əşyaları, elmi əhəmiyyətli arxeoloji materiallardır ki, bunların da çoxu arxeoloji dəlillərə əsasən antik dövrə (e.ə.IV-b.e.III əsri) aid edilmişdir.

A.B.Nuriyev Bərdə ərazisindən toplanmış gil və şüşə qabları, şüşəvari pastaları, müxtəlif rəngdə daşdan və gildən hazırlanmış bəzək əşyalarını analoji materiallara əsasən e.ə. III - eramızın III əsrinə aid etmişdir [14, s.74]. Bunlar VIII əsrdən başlayaraq bizim günlərə kimi məişətimizdə istifadə olunmaqdadır. Şüşə bəzək əşyaları çox vaxt metal bəzəkləri təkrarlayıb, onların formasında hazırlanırdı. İsidilmiş şüşənin plastikliyi müxtəlif ölçülü şüşə çubuqların hazırlanmasına imkan verir ki, həmin çubuqlardan da bilərzik və üzük hazırlanırdı [8, s.77]. Bundan əlavə, arxeoloji qazıntı-

* **Əsədova Aytən** - AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun dissertantı, Sumqayıt Dövlət Universitetinin müəllimi, email: ttm.17@mail.ru

lar zamanı tapılmış şüşədən düzəldilmiş bəzək əşyaları, xüsusilə qolbaq, asma, üzük və sırğalar şəhərtipli yaşayışın əlaməti kimi xüsusi nəticə çıxarmağa imkan verir. Bərdədən aşkar edilmiş müxtəlif tipli və müxtəlif çeşidli bu şüşə bəzək əşyaları hərtərəfli tədqiqata cəlb edilmiş, təsviri və təsnifatı verilmişdir.Həmin şüşə məmulatları şüşə asma, muncuq, üzük, qolbaq kimi müxtəlif növ bəzək əşyalarından ibarətdir. Həmin şüşə məmulatının araşdırılması göstərir ki, şüşə bəzək əşyalarının istehsalına antik dövrdə, şüşə qab-qacaq istehsalına isə ilk orta əsrlərdə başlanmışdır [6, s.303]. Qeyd edildiyi kimi Bərdədən aşkar edilmiş şüşə məmulatı üç qrup əşyalardan ibarətdir. Bunlar əsasən süfrə qabları, məişət əşyaları və müxtəlif bəzək əşyalarıdır. Şüşə bəzək əşyaları içərisində qolbaqlar, muncuqlar və üzüklər əsas yer tutur. Ümumilikdə orta əsr Azərbaycan abidələrindən tapılan biləziklərin əksəriyyəti qara rəngdədir [3, s.42].

Bərdədən aşkar edilmiş qolbaqlar forma və rənginə görə çox müxtəlifdir. Miqdari analiz nəticələri göstərir ki, qolbaqlar bəzək tipli əşyalar içərisində kütləvi yayılan növdür. Onu təkcə gənclər de-yil, qocalar və yaşlılar da geyinirdi.

Hər şeydən əvvəl Bərdədən aşkar edilən şüşə qolbaqların xarakteristikası üzərində dayanmaq lazımdır. Şüşə qolbaqlar, ümumiyyətlə, Azərbaycanın orta əsr şəhərlərindən, o cümlədən Gəncə, Şamaxı, Şabran, Naxçıvan, Bakı və digər şəhərlərdən aşkar edilmişdir. Bunlar geniş yayılmış invertarlardan biridir. Azərbaycan alimləri qazıntı zamanı mədəni təbəqədən aşkar edilmiş nümunələri qeyd edərkən qolbağlara da toxunmuş, onların yalnız xarici görünüşünü xarakterizə etmişlər. Bununla bərabər, bir sıra alimlər qolbaqlarla bağlı müəyyən fikirlər söyləmişlər. Onlar, eyni zamanda həmin qolbağların aşkar edildiyi mədəni təbəqənin materiallar kompleksinin bir sıra xüsusiyyətlərini şərh edərkən bundan istifadə etmişlər. Qeyd etmək lazımdır ki, Azərbaycanda ən qədim şüşə qolbaq Şamaxıda III-IV əsrlərə aid torpaq qəbirdən aşkar edilmişdir [2, s.113-122]. Bu qolbağın tarixi şübhə doğurmur, ona görə ki, həmin qəbirdən aşkar edilən digər əşyalarla bərabər son antik dövrü üçün xarakterik olan həmin qəbirdən 244-249-cu illərdə hökmranlıq etmiş Roma imperatoru Böyük Flippin adından kəsilmiş pullar da aşkar edilmişdir. Bu qolbaqlar dairəvi formada hazırlanmışdır. Onların diametri 7 sm-dir. A.Nuriyevin fikrinə görə qədim Şamaxıdan aşkar edilmiş şüşə qolbaqlarla oxşardır. O, şüşə məmulatına





həsr etdiyi məqalədə bu qolbaqları Şamaxıda istehsal edilmiş qolbaqlarla bərabər Azərbaycanda ən qədim qolbaqlar olduğunu qeyd etmişdir. Yuxarıda deyildiyi kimi Azərbaycanda aşkar edilmiş qolbaqlar, əsasən, Şamaxı istisna olmaqla, IX əsrdən sonra yayılmışdır. Bunlar Dərbənd materialları içərisində də izlənilir. A.A.Kudryavtsev bu məsələyə toxunaraq, xüsusilə, qolbaqlarlara dair qeyd edir ki, "Dərbənddə aşkar edilən qolbaqların IV əsrdə meydana çıxması stratiqrafik məlumat üzrə, zəngin saxsı və sikkələrlə təsdiq edilir.Bu, həmin əsrin ikinci yarısında istehsalın mümkünlüyünü istisna etmir. Xronoloji baxımdan IX-X əsrlərə aid bir dənə də olsun qolbaq aşkar edilməmişdir" [9, s.214].

Qəbələnin şüşə məmulatına xüsusi məqalə həsr etmiş Q.M.Əhmədov və V.P.Fomenko qeyd etmişlər ki, "ən geniş yayılmış şüşə bəzək əşyası növü qolbaqlardır... Qolbaq hissələrinə bütün qazıntılarda rast gəlinmişdir, xüsusilə, onlar çökək və çalalarda daha çox tapılmışdır" [12, s.163]. Onların fikrinə görə Qəbələdən tapılmış şüşə qolbaqlar arasında qara şüşədən düzəldilmiş, üzəri rəngli şüşə ilə nöqtələnmiş, üzəri dairəvi və düz, hamar səthi olan qolbaqlar xüsusi maraq doğurur". İ.M.Cəfərzadənin fikrincə, Gəncə arxeoloji materialları içərisində də dairəvi və burulmuş, üzəri qara, göy və sarı-yaşıl rəngli şüşə qolbaqların qırıqları çoxlu miqdardadır. Belə nümunələrə digər orta əsr abidələrində - Şabran, Naxçıvan, Bakı, Muncuqlutəpədə və digər bir çox abidələrdə aparılmış arxeoloji tədqiqatlar zamanı rast gəlinmişdir. Bunlar hesabat və məqalələrdə öz əksini tapmışdır. Buna görə də, Bərdədən aşkar edilmiş qolbaqların materiallarına əsaslanaraq, Azərbaycanda şüşəişləmə sistemində qolbaq istehsalının yerini və rolunu müəyyənləşdirməyə çalışacağıq. Bir məsələni də qeyd etmək lazımdır ki, bizim fikrimizcə, Bərdə qolbaqlarının forma və istehsal texnikasının inkişafı xronoloji baxımdan çox vacib məsələdir. Bu onunla əlaqədardır ki, Bərdə bir neçə dəfə dağıntıya məruz qalmış və yenidən bərpa olunmuşdur. Buradakı qazıntıların stratiqrafiyası qolbaqların ayrı-ayrı formalarının və onların texnologiyasının inkişafının xronoloji cəhətdən izləmək imkanı vermir. Buna görə də, biz tikinti dövrünü izləyərək qolbaqların istehsal tarixini müəyyənləşdirməyi əsas götürürük.

Bərdədən aşkar edilmiş qolbaqların formasına, ölçüsünə, rənginə və digər komponentlərinə görə müxtəlifliyi şəhərdə öz xüsusi işarəsi olan bir neçə sənətkar müəssisəsinin olması ilə bağlıdır. Tapılmış qolbaqları yalnız

xarici formasına əsaslanaraq üç böyük qrupa bölmək olar. Bunların içərisində ən çox yayılanı hamar-dairəvi, burulmuş və qabırğavaridir. Bu qruplar bir neçə yarımqrupa bölünür. Bərdədən bu günə qədər iki tip dairəvi-hamar qolbaq məlumdur. Bunlardan birincisi dairəvi şüşə çubuqdan düzəldilmişdir. Bu qolbaqlar sadəcə olaraq şəffaf şüşədən hazırlanmışdır. Belə qolbaqları hazırlamaq nisbətən çətin idi. Ona görə də bunun üçün simmetrik dairə lazım idi. Həmin şüşə çubuğu burmaq üçün müəyyən edilmiş materialdan istifadə edilmişdir. Bu əşyadan həmin qolbağın içəri hissəsinin deformasiyaya uğramaması üçün istifadə edilirdi.Bir qrup qolbaqlar məhz həmin üsulla hazırlanmışdır. Dairəvi qolbaqlar bizim fikrimizcə, qəlibdə düzəldilmişdir. Biz bundan belə nəticə çıxarırıq ki, həmin qolbaqların yapışdırılan yerində izi görünmür. Görünür ki, əvvəlcədən hazırlanmış dairəyə şüşə məhlul tökülür və bundan sonra həmin kütlə soyuyur, buradan hazır qolbaq əmələ gəlir. Belə qolbaqların ölçü və rəngləri onun alıcısının zövqündən asılı idi. Belə qolbaqlar üçün qəlibi asanlıqla və hər hansı materialdan hazırlamaq olurdu. Bu qolbaqların ikinci tipini hamar-çıxıntılı formalı adlandırmaq olar. Bunları hazırlmaq üçün A.A.Kudyatsev haqlı olaraq qeyd edir ki: "isti halda dartıb uzadılmış düz çubuğu üst hissəsi hamar olan səliqə ilə hazırlanmış daş lövhənin üzərinə geyindirir, buna görə də, o, üstdən dairəvi formalı, içəri üzdən hamar alınır, sonra onun ucları bərkidilirdi" [5, s.225]. Bu üsulla hazırlanmış qolbaqlar digərlərindən çoxdur. Xronoloji baxımdan IX-XIV əsrlərdə işlədilmişdir. Göstərilən üsulla müxtəlif rəngdə və müxtəlif ölçüdə olan bu qolbaqlar içəri tərəfdən yastı-hamar olurdu. Onlar xarici tərəfdən oval formalı ellipsvari şəkil alırdı. Bu qolbaqlar içəridəndə, çöldəndə görünüşü onun istehsalı zamanı istifadə edilən əşyanın forma və ölçüsündən asılı idi. Bu, isti şüşə çubuğu onun üzərinə yerləşdirməklə edilirdi. Burma qolbaqların formalaşdırılması da çox mürəkkəb idi. Bu qolbaqlara diqqətlə baxdıqda məlum olur ki, Bərdədə üç burma forması mövcud idi. Bizə belə gəlir ki, bunlardan ikisi burmanın sayı ilə əmələ gəlirdisə, üçüncüsü burmanın üsulundan asılı idi. Burulmuş qolbaqların ən geniş yayılmış forması spiralvari idi. Bunun nəticəsində şüşə çubuğun üst hissəsi kiçik qabırğavari forma alırdı. Bu forma ustanın həmin qolbağı hazırlayarkən daha çox burması hesabına əmələ gəlirdi. İkinci qrup burma qolbaqlar az burulmuşlar idi. Adətən usta şüşə materialını (çubuğu) götürüb onları bir neçə dəfə burur, qolbağın üzərində sıx olmayan qabırğa alırdı. Belə qolbaqların çubuğu, adətən, nisbətən digərlərindən yoğun olurdu.





Üçüncü tip burma qolbaqlar çox geniş yayılmamışdır. Ancaq onlar XIV-XV əsrlərdə dəbdə olmuşdur. Bu qolbaqlar çox buruq deyil. Sifarişdən asılı olaraq və yaxud ustanın məqsədi ilə bağlı olaraq çubuq bir neçə yerindən burulur, onun simmetrik olmasına əməl etməklə, başqa sözlə usta çalışır ki, burulmuş yerin sayı burulmamış hissənin sayı ilə üst-üstə düşsün və təkrar olunan burma yerlərinin arasındakı məsafə bərabər olsun. Buna görə də, əvvəlki iki tip burma qolbaqdan sonuncu qolbaqlar formalaşdırma üsulunun mürəkkəbliyinə görə fərqlənir. Üçüncü forma Bərdə qolbaqları qabırğavaridir. Bu qolbaqların formalaşdırılması xüsusi üsul tələb edirdi. Usta qabırğavari üst hissə almaq üçün şüşə çubuq hələ isti olan zaman üzərində əlavə iş görməli idi. Belə qolbaqlar müqayisədə kəmiyyətcə digərlərindən azdır və onlar başlıca olaraq monqol dövründən sonrakı təbəqələrdə rast gəlinir. Bu qolbaqlar rənginə görə elə də rəngarəng deyil. İndiyə qədər Bərdədən yalnız göy qabırğavari qolbaq tapılmışdır. Digər rəngli qolbaqlara hələ rast gəlinməmişdir. Misal üçün, Bərdədən aşkar edilmiş qolbaqlar rənglərinə görə tamamilə müxtəlifdir. Qolbaqların rənglərinə əsaslanaraq, ayrı-ayrı xronoloji dövrlərdə hansı boyaların dəbdə olduğunu müəyyən etmək mümkündür. Məsələn, 82 fraqment qolbaq IX-XI əsrlərə, 63 ədəd isə XII-XIII əsrlərə aiddir. Onlardan 11 ədədi şəffaf şüşədəndir. XIV əsr təbəqəsindən aşkar edilmiş qolbaq fraqmentlərinin əksəriyyəti də qaradır. Bu dövrlərdə tamamilə müxtəlif rəngli qolbaqlara, o cümlədən yaşıl, göy, mavi, şəffaf və s. rast gəlinir.

Bundan ötrü müəyyən təsəvvür yaratmaq üçün yerli ustaların istehsalıdır və daxili bazarda ona geniş tələbatın olduğunu hesab etdiyimiz bir neçə Bərdə qolbağının təsviri üzərində dayanmağı məqsədəuyğun sayırıq. Burada qolbaqların istehsalı zamanı şüşə çubuqların uclarının birləşdirilməsi üsulu üzərində dayanmaq istərdik. Qeyd etmək lazımdır ki, bu qolbaqların çoxu fraqment şəklində tapılmışdır. Bunların əsasında çubuqların uclarının birləşdirilməsi üsulunu müəyyənləşdirmək mümkün deyil. Lakin mövcud materiallar əsasında nəticə çıxarmaq olur ki, Bərdə ustaları Azərbaycanda həmin dövrdə mövcud olan bütün üsullardan istifadə etmişdir. Vaxtilə V.P.Fomenko Beyləqan materialları üzrə müəyyənləşdirmişdir ki, göstərilən məqsəd üçün bir neçə üsul mövcud olmuşdur. O, bu barədə belə

yazmışdır: "Qolbaqlar çubuqların uclarının birləşməsi üsuluna görə də bir-birindən fərqlənirdi. Uclarının birləşmə yeri qolbağın ən gözəl olmayan hissəsidir. Bəzən qolbağlar üzərində bir, üç, yaxud beş buğum görmək olar. Sıxacla möhkəmləndirmək üçün hamarlanmış yeri görmək olar. Uclarına əlavə etməklə birləşdirilməsi üsulu ilə XIII-XIV əsr şüşə qolbaq və üzüklər üzərində rast gəlinir. Sıxacla birləşmə ilə istehsal edilmiş dairəvi qolbaqlara Cənubi Qafqazda tez-tez rast gəlinir [4, s.219]". Alimin gətirdiyi fikirə onu əlavə etmək olar ki, Bərdədən aşkar edilmiş qolbaqların əksəriyyətinin birləşmə yerindən onların iki əsas üsulla hazırlandığı gözə çarpır. Ən geniş yayılmış üsul şüşə çubuqların uclarını onları bir-birlərinin üzərinə qoyaraq sıxmaq üsulu ilə edilir. Bu üsulla edilmiş birləşdirmə qolbağın digər hissələrindən açıqca fərqlənir və onun formasına oxşamır. 2-ci üsul mürəkkəbdir, ustadan çubuğun uclarını birləşdirmək istəyən zaman, onun izinin bilinməməsi üçün yüksək qabiliyyət tələb olunur. Bu məqsədlə, birləşmə yerində usta müəyyən edilmiş istehsal üçün əlavə iş görməklə qolbağın birləşdiyi yeri müəyyən formaya salır. Lakin belə qolbaqlar azlıq təşkil edir. Bizə elə gəlir ki, bu yalnız xüsusi sifarişlər üçün yerinə yetirilirdi. Bərdə qolbaqlarının uclarını birləşdirmək üçün 3-cü üsul da vardır. Bu üsul aşağıdakı kimi yerinə yetrilir: usta qolbaqların materialının hər iki ucunu bir birinə yaxınlaşdırır, ancaq onları bir-birinə birləşdirmir, oraya əlavə şüşə damcısı qoyur. Beləliklə, bərkidilən yerdə əmələ gəlmiş əlavə şüşə damcısı ilə xüsusi dairə alınır. Qolbağın bu hissəsinin qalınlığı özünün ölçüsünün daha yoğun olması ilə fərqlənir. Belə birləşmə göstərilən yerin rənginə də təsir edir, belə ki, burada daha tünd rəng alınır. Ümumiyyətlə, Bərdə qolbağının rəng çalarına toxunaraq qeyd etmək lazımdır ki, bütün qolbağları bir neçə rəngli olsalar da hər bir qolbaq nümunələri bir rənglidir. İki və daha artıq rənglənmiş qolbağa rast gəlinməmişdir. Bərdə qolbaqlarının rənglər üzrə qruplaşdırılmasından sonra müəyyən edilmişdir ki, onlar aşağıdakı kimi bölünə bilər: qara, palıdrəngi, göy, yaşıl, bənövşəyi, şəffaf (rəngsiz), az-az hallarda firuzəyi rənglilərinə də rast gəlinir. Lakin Bərdədən aşkar edilmiş qolbaqların əksəriyətini qara rənglilər təşkil edir. Bu isə bir tərəfdən estetik dünya görüşündən, digər tərəfdən isə qara rəng xalqın etnoqrafik düşüncəsi və onların şüuraltı hissləri ilə bağlı idi.

Bərdə qolbaqlarını rəngləri və forması üzrə qruplaşdırmaq çətindi. Ona görə ki, bizim fikrimizcə, ustalar arasında qolbaqlar üzrə dairəvi, burulmuş və s. düzəltmək üzrə ixtisaslaşma getməmişdi. Bizə elə gəlir ki, rəng və forma sifarişçidən asılı idi. Onlar əsasən qara rəngli qolbaqlar sifariş etmişlər. Onların formasına gəldikdə isə, bu həmin qolbaqların hansı məqsədlə istehsal edilməsindən asılı idi. Əgər onun təyinatı bəzək idisə, onda şüşə çubuğu lazımi formaya salırdı. Bu da, sifarişçidən asılı idi. Əgər o, dünyagörüşü dərketmə hissi ilə əlaqədar idisə, onda burada başlıca olaraq yalnız rəng böyük rol oynayırdı. Qafqazda böyük marqans yataqlarının olmasını nəzərə alan M.A.Bezborodov bu biləziklərin Qafqaz mənşəli olduğu fikrini irəli sürmüşdür [10, s.208]. Ola bilsin ki, Azərbaycanda belə bilərziklərin bir neçə istehsal mərkəzi olmuşdur. M.A.Bezborodov və İ.İ.Yakobson Beyləqandan tapılmış orta əsr şüşəsinin üzərində apardıqları kimyəvi analizə əsasən belə nəticəyə gəlmişlər ki, qara rəngli bilərziklər Azərbaycanın özündə istehsal edilmişdir. Saruelde tapılmış bilərziklər Azərbaycanın özündə istehsal edilmişdir. Sarueldən tapılmış bilərziklər Azərbaycandan ticarət vasitəsi ilə Saruelde aparılmışdır. Qara rəngli bilərziklərin yerli istehsal nümunəsi olduğu barədə mühakiməni düzgün hesab etmək olar. Bunu İ.Yakobson fikri də təsdiq edir, o, qeyd edir ki, IX-X əsrlərə aid Beyləqanı şüşə bilərziklərinin qonşu ölkələrdən tapılmış nümunələrə çox oxşar olmasına baxmayaraq qara rəngli hamar bilərziklərin Beyləqanda istehsal olunması heç bir şübhə doğurmur. Digər orta əsr abidələrindən tapılan şüşə bilərziklərin öz kimyəvi təcrübinə və formalarına görə oxşar olması təsdiq edir ki, IX əsrdən başlayaraq XIII əsrin sonlarına kimi Azərbaycanın ən iri şəhərlərində şüşə bilərzik istehsalı mövcud olmuşdur [8, s.80]. Şüşə bilərziklər Bərdə şəhərində olduğu kimi, digər orta əsr Azərbaycan şəhərində də istehsal edilmişdir. 2001-ci il qazıntıları nəticəsində Salyan bölgəsinin Qırxçıraq abidəsindən şüşə bilərziklərinin qalıqları aşkar olunmuşdur [15, s.51]. Şüşə bilərziklər eyni zamanda Beyləqanda, Qəbələdə də aşkar edilmişdir. Qəbələdən tapılmış bilərziklərin içərisində də qara rəngdə qolbaqlar çoxluq təşkil edir [11, s.1]. Şüşə bilərziklərə Mingəçevir və Şəmkirdə 2006-cı il qazıntılarında rast gəlinir [7, s.89]. Azərbaycanda tapılan şüşə bilərziklərin oxşarına Bilyart şəhəri yaxınlığında aparılan qazıntılarda rast gəlinir [14, s.85]. Bu da Azərbaycan şəhərlərinin Volqa-Xəzər boyu ticarət əlaqələrinin olması ilə bağlıdır [13, s.6]. Eyni zamanda Bərdə şəhərindən 300 şüşə muncuq da aşkar edilmişdir [1, s.128].

Bir faktı da qeyd etmək lazımdır ki, usta qolbağını rəngləmək üçün şirli saxsı üçün müəyyən edilmiş digər boyadan istifadə edə bilərdi.

Bərdə qolbaqlarının ayrı-ayrı növlərinin xronologiyası barədə danışarkən qeyd etmk lazımdır ki, IX əsrdən başlayaraq, əsasən, üç növ qolbaq yayılmışdır: gövdəsi dairəvi, hamar-yastı və burulmuş, yerdə qalan qolbağlar isə yalnız monqol hücumundan sonra meydana çıxmış, lakin geniş yayılmamışdır.

Beləliklə, yuxarıda deyilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, antik və orta əsrlərdə Bərdə şəhərində və eləcə də Azərbaycanın orta əsr şəhərlərində metal bilərziklər kimi, şüşə bilərziklərdə geniş yayılmış bəzək əşyası olmuşdu və bu şüşə bilərziklər yerli ustalar tərəfindən, yerli xammal əsasında istehsal edilirdi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Asadova A.V. Glass decorative items found in Barda. Национальной педагогичной университет имени М.П.Драгоманова. ВГО Украинская академия наук. Видавництво «Гилея». Науковий висник збирник наукових праць. Випуск 131 (№4), Киев 2018. Стр. 128-129
2. Bədəlov B. Qadın bəzəkləri və onunla əlaqədar olan adət-ənənələri. Bakı Univeristetinin Xəbərləri. Bakı, 2008 (1), s.147-151
3. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri (tarixi arxeoloji tədqiqat). Bakı, Elm, 1979, 197 s.
4. Nuruyev A.B. Qafqaz. Albaniyanın şüşə məmulatı və istehsalı tarixi. Bakı, Elm, 1981, s.150
5. Osmanov F.H. Qələbənin şüşə məmulatı. AMM, Bakı MEA Azərb. SSR, 1964, s.155-158
6. Rəcəbova B. Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və istehsalı tarixindən (IV-XVII əsr). (tarixi arxeoloji tədqiqat). Bakı-Elm, 2009, s.303
7. Нуриев А.Б. Из истории ремесленного производства Кавказской Албании. Баку. Элм. 1986, с.54
8. Ахмедов Г.Г., Фоменко П.М. Стеклянные изделия из раскопок Кабалы (1972-1976 гг). МКА, том X. Çfre, Əkv, 1987, с.163, 166
9. Ахундова Г.К. Стеклянные браслеты из Гырхчырага. Тезисы научной сессии НАН Азербайджана, посвященный итогом археологических и этнографических изысканий 2000-2001 года. Баку, Элм, 2002, с.50,52
10. Безбородов М.А. Стеклоделия в Древней Руси. Минск, Изд-во АН ССР, 1956, с.306
11. Кудрявцев А.А. О стеклоделии средневекового Дербента (VI-X вв). Новое в археологии Северного Кавказа. Москва, Наука, 1986, с.230
12. Львова З.А. Восточноевропейские стеклянные украшения VIII-XII вв. Ленинград, Изд-во гос. 1961, ы.225
13. Нуриев А.Б. О производстве стекла в древней Шемахе МКА. Баку, 1965, с.122
14. Нуриев А.Б. Стеклянные изделия и их производство в Кавказской Албании (на азерб.языке). Баку, Изд.Элм, 1981, с.74
15. Фоменко В.П. О технике изготовления стеклянных изделий из Байлакана, том. VIII, Баку, 1976, ы.226
16. Шапова Ю.Л. Стеклянные браслеты из Культура средневековой Руси, Изд-во наука, Ленинград, 1974, 215 с.






## FROM THE PRODUCTION HISTORY OF GLASS BRACELETS FOUND IN BARDA SUMMARY


This is the history of the production of glass bracelets found in Barda, in the Middle Ages, glass production in Barda was further developed. Glass bangles occupy a special place in glassware found in Barda. The first period of glass production in Barda, the capital of Azerbaijan and the longest in Azerbaijan, begins with the preparation of glass decorations, which is further developed in the Middle Ages. Glass barbecues found in Barda are colorful, colorful, with their designs and patterns. According to the embroidery on the bracelets and the technology of cooking, it may be possible to prepare these decorative items by local masters.


## ИЗ ИСТОРИИ ПРОИЗВОДСТВА СТЕКЛЯННЫХ БРАСЛЕТОВ, НАЙДЕННЫХ В ГОРОДЕ БАРДЕ РЕЗЮМЕ


В средние века в Барде получило развитие производство стеклянных браслетов. Стеклянные браслеты занимают особое место среди изделий, найденных в Барде. Стеклянные браслеты, найденные в Барде, являются уникальными по красоте изделиями. Исходя из особенностей выделки на браслетах и технологии их изготовления, можно придти к выводу, что эти декоративные предметы были изготовлены местными мастерами.